
Yurdun Nağıl Bağı
LEVİAFAN, TÜLKÜ, BİR DƏ BALIQLAR

*Yurdun Nağıl Bağı*

# LEVİAFAN, TÜLKÜ, BİR DƏ BALIQLAR

"TUTU" Uşaq Mədəniyyət Mərkəzi
Bakı - 1998



Vaxt vardı, ağıl beyində yox, ürəkdə idi. Balıqlar mülkünün sultanı çar Leviafan günlərin birində eşitdi ki, quruda yaşayan ən ağıllı və tədbirli heyvan tülküdür. Çar olanda nolar, Leviafan da istədi tülkü kimi ağıllı olsun. Yekə və güclü balıqları yanına çağırıb, əmr etdi:

- Gedin, yerin dibindən də olsa, tülkünü tapın, sonra da ürəyini çıxarıb mənə gətirin!





Balıqlar əmri yerinə yetirmək üçün üzüb sahilə yaxınlaşdılar. Sonra da quyryqlarını suda şappıldada-şappıldada sahildə özünü günə verən tülküyə göz qoydular. Bunu görən tülkü balıqlardan soruşdu:

- Xeyir ola, sizin sahildə nə işiniz var?

- Səni gözləyirik.

- Məni? - deyə tülkü mat qaldı. - Mən hara, balıqlar hara?

- Paho!.. Yəni sən hələ bilmirsən ki, hökmdarımız ölüm yatağındadır, səni də özünün varisi təyin edib? Sənin iti ağlının şöhrəti dənizin dibinə də çatıb. Çar Leviafan buyurub ki, gəlib sualtı səltənətdə onu əvəz edəsən.





- Yaxşı, bəs Leviafanın yanına necə gedəcəyəm? - deyə tülkü soruşdu.

Balıqların böyüyü cavab verdi:

- Min belimə, gözünü yumub-açınca ordasan. Bundan sonra xoşbəxt yaşayacaq, var-dövlət içində üzəcəksən. İstədiyini yeyib-içəcək, ayıdan, canavardan qorxmayacaqsan.

Tülkünün ağzı sulandı, kefi kökəldi və hökmdar ədasıyla mindi başçı balığın belinə.





Balıqlar sahildən xeyli aralanmışdılar ki, dalğaların şahə qalxdığı bir yerdə canına qorxu düşən tülkü soruşdu:

- Mənim əzizlərim, daha qaçacaq yerim yoxdur. Bəlkə indi düzünü deyəsiniz - nəyinizə gərəyəm, hara aparırsınız məni?

- Hə, indi düzünü demək olar, - deyə balıqlar razılaşdı. - Çar Leviafan eşidib ki, sən hiyləgərlərin ən ağıllısısan. Onunçün də sənin ürəyini yeyib, sənin kimi ağıllı olmaq istəyir.





Tülkünün qorxudan ürəyi titrədi, ancaq tezcə özünü ələ alıb dedi:

- Bəs bunu indi deyərlər? Bu işi əvvəldən bilsəydim, ürəyimi də özümlə götürərdim. Ay sizi, fərsizlər!

Balıqlar mat-mat soruşdu:

- Yəni sənin ürəyin həmişə üstündə olmur?





- Əlbəttə yox, - deyə tülkü cavabladı. - Biz tülkülərin öz adəti var. Niyə ürəyimizi hər yerə özümüzlə daşıyaq ki? Lazım olanda götürürük, lazım olmayanda qoyuruq evdə. İndi ki sizə lazımdı, qayıdaq sahilə, yuvamdan götürüm gəlim ürəyi. Siz də onu bağışlayın Leviafana. Çarın mükafatından mənə də pay düşər, sizə də.

Balıqlar razılaşdı:

- Qoy sən deyən olsun. - Və üzüb təzədən sahilə döndülər.





Özünü qumluğa atan tülkü şadlığından mayallaq aşırdı.
- Niyə tələsmirsən? - deyə balıqlar soruşdu. - Tez ürəyini gətir, bizim o qədər başqa işimiz var ki!..
- Necə axmaqsınız!.. Ürəyim özümdə olmasaydı, sizdən, bir də çar Leviafandan qurtula bilərdim heç?
Ay səni hiyləgər tülkü!..



"TUTU" Uşaq Mədəniyyət Mərkəzi

*Uşaqlar bütün nağılları
ilk dəfə Ana Dilində eşidir.
Bütün uşaqlarla dost olmaq
istəyirsənsə, onların dinlədiyi nağılı
sən də dinlə, sən də anla.
Ətirli gül-çiçək kimi, hər dilin də
öz rəngi, öz qoxusu var.
Yurdunun bütün rənglərini
görsən, Dünyanın ətrini alacaq,
canlı olan hər şeyi
sevib-qoruyacaqsan...*

